Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

Qrimm qardaşları

# Bremen musiqiçiləri



Qrimm qardaşları

# Bremen musiqiçiləri



Tərcümə edəni: Akif Əli

Qrim qardaşlarının
“Bremen musiqiçiləri” nağılının yenidən
işlənmiş variantında alman və rus dillərində
nəşr olunmuş kitablardan
istifadə edilmişdir.



# Bremen musiqiçiləri

Keçmiş zamanlarda bu dünyada bir dəyirmançı vardı. Bu dəyirmançının bir yaxşı uzunqulağı vardı. Həm ağıllı idi, həm də güclü. İllər uzunu bu uzunqulaq yorulmaq bilmədən dəyirmanda işlədi, belində un dolu kisələr daşıdı və nəhayət, günlərin bir günü qocalıb əldən duşdü.

Sahibi baxıb gördü ki, uzunqulağın heyi qalmayıb, daha işə-gücə yaramır, onu evdən qovdu.

Uzunqulağın canını qorxu aldı: "İndi hara gedim, başıma nə çarə qılım? Həm qocalmışam, həm gücdən duşmüşəm". Sonra fikirləşdi: "Yaxşısı budur, gedim Bremen şəhərinə, orada küçələrdə musiqiçilik edərəm".

O cür də elədi. Bremen şəhərinə doğru üz qoydu.

Uzunqulaq yol gedə-gedə anqırırdı. Və birdən bir ov itinə rast gəldi; it düz yolun ortasında uzanıb dilini bayıra çıxartmışdı, ağır-ağır tövşüyürdü.

Uzunqulaq soruşdu:

—Niyə belə ləhləyirsən, ay it? Nə olub?

—Yorulmuşam, — dedi it. — Çox qaçmışam, ona görə də nəfəsim kəsilir.

Uzunqulaq soruşdu:



—Hara belə qaçırdın ki?

—Eh, ay uzunqulaq, — it cavab verdi, — incitmə məni, yazığın gəlsin! Mən uzun müddət bir ovçunun yanında yaşamışam, çöllərdə, bataqlıqlarda ov dalınca cummuşam.

İndi daha qocalıb əldən-dildən düşmüşəm, işə yaramıram, onunçün də sahibim məni öldürmək istəyirdi. Mən də qaçıb canımı xilas eləmişəm, amma bundan sonra neyləyəcəyəm — bilmirəm.

—Gəl qoşul mənə, gedək Bremen şəhərinə, — uzunqulaq ona dedi. — Orda küçə musiqiçiləri olarıq. Səsin hələ güclüdür, yaxşı da hürə bilirsən.

– Sən həm oxuyarsan, həm dəf çalarsan, mən də həm oxuyaram, həm də gitarada çalaram.

—Nə deyirəm ki, — it razılaşdı, — gedək.

Onlar birgə yola düzəldilər.

Uzunqulaq gedə-gedə anqırır, it də gedə-gedə hürürdü.

Az getdilər, üz getdilər, bir də gördülər ki, yolun ortasında bir pişik əyləşib, yaman da dilxordur, heç kefi yoxdur.

Uzunqulaq ondan xəbər aldı:

—Niyə belə dilxorsan?

İt dedi:

—Niyə belə kefsizsən?

—Eh,—pişik cavab verdi,—mənə yazığınız gəlsin, ay

uzunqulaq, ay it! Uzun müddət öz sahibəmə canla-başla qulluq eləmişəm: nə qədər kəsəyən tutmuşam, siçan boğmuşam. İndi ta qocalıb əldən düşmüşəm, dişlərim korşalıb. Sahibəm gördü ki, daha siçan tuta bilmirəm, aparıb çayda batırmaq istəyirdi. Əlindən qurtulub qaçmışam.
Amma bundan sonra neyləyəcəyəm, nəynən dolanacağam — bilmirəm.

Uzunqulaq ona cavab verib dedi:

—Ay pişik, gəl qoşul bizə, gedək Bremen şəhərinə, orda küçə musiqiçiləri olarıq. Səsin pis deyil, həm mahnı oxuyarsan, həm də skripka çalarsan; it — həm oxuyacaq, həm dəf çalacaq, mən özüm də ki, həm oxuyacağam, həm də gitara çalacam.

—Nə deyirəm ki, — pişik etiraz eləmədi, — gedək.

Onlar birlikdə düzəldilər yola.

Uzunqulaq gedə-gedə anqırır, it hürür, pişik də miyoldayırdı.

Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, bir həyətin yanından keçəndə gördülər ki, darvazanın üstündə bir xoruz əyləşib. Özü də gücü gəldikcə bağırır: "Quq-qu-lu-quu"!

—Niyə belə özünü didib-tökürsən? — uzunqulaq soruşdu.

—Nolub? — it xəbər aldı.

—Kim dəyib xətrinə? — pişik dedi.

—Eh, — xoruz onlara cavab verdi, — incitməyin məni,



ay uzunqulaq, it, pişik. Sabah sahibimgilə qonaqlar gələcək, — onunçün də məni tutub kəsmək istəyirlər ki, şorba bişirsinlər. Bilmirəm nə çarə qılım?

— Gəl qoşul bizə, ay xoruz, —dedi uzunqulaq, — gedək Bremen şəhərinə, orada küçə musiqiçiləri işləyərik. Yaxşı da səsin var, həm mahnı oxuyarsan, həm də balalayka çalarsan, odey pişik həm oxuyacaq, həm də skripka çalacaq, it də həm oxuyacaq, həm dəf çalacaq, mən özüm də həm mahnı oxuyacam, həm də gitara çalacam.

—Nə deyirəm ki, — xoruz da razılaşdı, — gedək.

Onlar düzəldilər yola.

Uzunqulaq gedə-gedə anqırır, it — hürür, pişik — miyoldayır, xoruz da banlayırdı.

Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, nəhayət, axşam düşdü. Uzunqulaqla it nəhəng bir palıd ağacının dibində uzandılar, pişik budağa dırmaşdı, xoruz isə ağacın lap təpəsinə qalxıb ətrafa göz gəzdirməyə başladı.

Bir qədər baxdı, baxdı, gördü ki, uzaqdan işıq gəlir. Xoruz çığırdı: —İşıq gəlir!

Uzunqulaq qayıtdı ki:

—Öyrənmək lazımdır, görək bu işıq hardandır. Bəlkə, o həndəvərdə ev var?

İt dedi:

—Bəlkə, o evdə ət var? Mən yaman acmışam.

Pişik dedi:

—Bəlkə o evdə süd də var? Mən də içərdim.



Xoruz da qayıtdı ki:

— Bəlkə, orada darı var? Mən də dənləyərdim.

Dostlar qalxıb işıq gələn səmtə getdilər.

Gəlib bir talaya çıxdılar, talada bir ev vardı və işıq bu evin pəncərəsindən gəlirdi. Uzunqulaq evə yaxınlaşıb pəncərədən içəri baxdı. Xoruz ondan soruşdu:

—Nə görə bilirsən orda?

—Deyəsən quldurlardır, — dedi uzunqulaq, — stolun arxasında oturub yeyib-içirlər.

—Ah, elə acmışam ki, — it dilləndi.

—Ah, elə susamışam ki! — pişik dedi.

—Quldurları evdən necə qovaq görəsən? — xoruz ququldadı.

Çox fikirləşdilər, çox götür-qoy elədilər, axır ki, tapdılar.

Uzunqulaq ehmallıca qabaq ayaqlarını qaldırıb pəncərənin içinə qoydu, it tullanıb onun belinə mindi, pişik sıçrayıb itin boynuna qalxdı, xoruz isə pırıltı ilə uçub pişiyin başına qondu.

Və hamısı bir ağızdan qışqırışmağa başladılar:

Uzunqulaq — anqırdı, it — zingildədi, pişik — cır səslə miyoldadı, xoruz da — quq-qu-lu-quu — banladı... Elə bu cürə qışqır-bağırla da pəncərədən otağa doluşdular. Quldurlar qorxudan dəhşətə gəlib meşəyə əkildilər. Uzunqulaq, it, pişik və xoruz stolun ətrafına yığışıb yeməyə başladılar.

Ye ki, yeyəsən, iç ki, içəsən — doyunca yedilər, içdilər.







Uzunqulaq həyətdə samanlığa sərələndi, it qapının ağzında yayxandı, pişik isti sobanın üstündə yumaqlandı, xoruz da darvaza dirəyinin üstunə çıxdı. Dostlar işığı söndürüb yuxuya getdilər.

Quldurlar bu zaman meşədə oturub öz evlərinə tərəf baxırdılar.

Bir də gördülər ki, pəncərənin işığı söndü, ev qaranlıqlaşdı.

Aralarında məsləhətləşib bir nəfər quldurு göndərdilər ki, görsün evdə nə var-nə yox. Bəlkə, belə qorxuya düşmək nahaqdı?

Quldur evə yaxınlaşdı, qapını açıb mətbəxə girdi. Gördü sobanın üstündə bir cüt köz işarır. Quldur fikirləşdi: "Hə, bu közlərdən talaşanı alışdıraram".

Bunu deyib əlindəki talaşanı işığa tərəf uzatdı. Bu isə, sən demə, pişiyin gözləriymiş, parıldayırdı. Pişik qəzəblə yerindən sıçradı, fınxırdı və necə atıldısa caynaqları quldurun sifətinə sancıldı.

Quldur qorxusundan qapıya tərəf cumdu. Bu vaxt it qalxıb onun qıçını qapdı.

Quldur həyətə tullandı. Həyətdə uzunqulaq soncuqlayıb ona bir yağlı təpik ilişdirdi.

Quldur darvazaya sarı cumdu. Bu vaxt xoruz qanad çalıb banladı:

—Quq-qu-lu-quu!!

Quldur dabanına tüpürüb meşəyə tərəf götürüldü.



Yoldaşlarına çatıb bağırdı:

—Fəlakət! Evimizə heybətli nəhənglər doluşub. Biri uzun caynaqlarıyla üz-gözümü cırmaqladı, biri bıçağını çəkib qılçamı parçaladı, üçüncüsü kürəyimə bir dəyənək ilişdirdi, dördüncüsü də arxamca cumub qışqırdı: «Oğrunu tu-tu- tun!!!»

—Aman Allah, — dedilər quldurlar. — Tez buralardan qaçıb canımızı qurtarmalıyıq!

Quldurlar həmin meşəni birdəfəlik tərk etdilər.

Bremen musiqiçiləri — uzunqulaq, it, pişik və xoruz isə onların evində qalıb firavan ömür sürdülər.



Bərpa nəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 2 ç.v.
Sifariş 15
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin*
*kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS –A"